# Xocalı soyqırımı qurbanlarının xatirəsi Yerusəlimdə ehtiramla anılıb



***İsrailin Yerusəlim şəhərində Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar anım tədbiri keçirilib.***

Diasporla İş üzrə Dövlət Komitəsindən verilən məlumatda bildirilir ki, Komitənin dəstəyi və "Azİz" İsrail–Azərbaycan Beynəlxalq Assosiasiyasının təşkilatçılığı ilə mədəniyyət mərkəzində baş tutan tədbirdə Knessetin deputatı, İsrail–Azərbaycan parlamentlərarası qrupunun sədri Elina Bardaç–Yalova, Azərbaycan Milli Məclisinin üzvü Sevil Mikayılova, Azərbaycanın İsraildəki Turizm Nümayəndəliyinin rəhbəri Cəmilə Talıbzadə, "Passage" jurnalının baş redaktoru, sənətşünaslıq doktoru Nərminə Ağası və digər rəsmi şəxslər, yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan "Azİz" Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Yeganə Salman 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələrinin sovet ordusunun Xankəndidə yerləşən 366-cı alayının iştirakı ilə Xocalı şəhərində dinc və günahsız azərbaycanlılara qarşı törətdiyi dəhşətli soyqırımı barədə ətraflı məlumat verib. Bildirilib ki, Azərbaycan xalqı, İsraildə və dünyada yaşayan azərbaycanlılar bu il dərin hüzn və kədərlə ölkəmizin müasir tarixinə ən dəhşətli qətliam kimi həkk olunmuş faciənin 30-cu ildönümünü qeyd edir.

Sonra deputatlar Elina Bardaç–Yalova, Sevil Mikayılova, "Pisqat Zeev" Qüds Mədəniyyət Mərkəzinin rəhbəri Yael Kohen, "Azİz" İsrail–Azərbaycan Beynəlxalq Assosiasiyasının prezidenti Lev Spivak çıxış ediblər.

"Yəhudilər sizi hər kəsdən yaxşı anlayır. Dinc əhalisi vəhşicəsinə qətlə yetirilən Azərbaycanın dərdinə şərik oluruq", – deyə E.Bardaç–Yalova Xocalı qurbanlarını ehtiramla yad edib.

Azərbaycanlı qonaqlar Xocalı faciəsi kimi ağrımıza şərik olduqlarına, "Xocalıya ədalət!" beynəlxalq kampaniyasına fəal şəkildə qoşulduqlarına, xalqımıza dəstək göstərdiklərinə görə İsrail dövlətinə və yəhudi xalqına minnətdarlıqlarını bildiriblər.

"Azİz" Beynəlxalq Assosiasiyasının prezidenti Lev Spivak anım tədbirinin keçirilməsində göstərdikləri dəstəyə görə Diasporla İş üzrə Dövlət Komitəsinə, "Xocalıya Ədalət!" beynəlxalq təbliğat kampaniyasına, "Pisqat Zeev" Qüds Mədəniyyət Mərkəzinin rəhbəri Yael Kohenə, musiqi məktəbinin direktoru Qalina Pritsə, "Azİz"in Yerusəlim bölməsinin sədri Aleksandr Aqranovskiyə xüsusi minnətdarlığını bildirib.

Tədbir Azərbaycan və dünya musiqi klassiklərinin əsərlərindən ibarət proqram ilə davam edib. Əsərləri Azərbaycanın tanınmış pianoçusu, beynəlxalq müsabiqələr laureatı Fəqan Həsənli və israilli opera müğənnisi Kamelia Yoffe ifa ediblər.

Tədbir çərçivəsində Qarabağ və Xocalı soyqırımı həqiqətlərindən bəhs edən kitablar təqdim olunub.

***Samirə ƏLİYEVA,***
***"Xalq qəzeti"***